# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 8 iyun (Bazar günü) tarixli 198-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası




# AZƏRBAYCAN

Yekşənbə, 9 ramazanül-mübarək sənə 1337.
8 həziran 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.


**Müsəlman Zəhmətkeş Ziyalılarının İttifaqı** idarəsi həmin həziran ayının 8-də axşam saat 5-də üzvləri fövqəladə ümumi iclasa dəvət edir. İclas Bələdiyyə İdarəsinin böyük zalasında qurulacaqdır.

Müzakirəyə qoyulacaq məsələlər:

1) İdarə heyətinin dakladı; 2) Təftiş heyətinin intixabı [seçilməsi]; 3) Hali-hazır; 4) İclasda qaldırılacaq məsələlər.

*10216*

## DƏVƏTNAMƏ

"Müsavat" firqəsinin qətnaməsinə görə, bu gün iyunun 8-i səhər saat 10-da şəhərin hər bir rayonlarında mitinqlər dəvət edilir. Yığıncaq yerləri bunlardır:

Sabunçu, Balaxanı, Ramanı və Zabrat: Sovet Syezdin ambulatoriyası.

Suraxanıda: Narodnı dom.

Bibiheybətdə Mitrofanovun həyəti.

Çornı və Belıqorodda: Çornı-qorodda olan Nobel aşxanası (stalovı).

Zavağzal rayonu: Balaxanski şosedə olan Narodnı dom.

Şəhər və Portovı rayon [Liman rayonu]: Hökumət Teatrosu (sabiq Mailov).

Şəhərin yuxarı hissəsi üçün: Fəhlə Klubu (Raboçi Klub).

*"Müsavat" firqəsi Mərkəzi Komitəsi*
*T-147*

## QARA TƏHLÜKƏ

İstiqlalımızın bir illik bayramını yenicə keçirmişdik ki, üfüqümüzdə qəflətən nümayan olan [görünən] bir qara əl həman istiqlalımızı qarpmaq və bizi murdar pəncəsi altında əzmək xəyalı ilə şimalımızdan uzanmağa başladı.

Xarabazara dönmüş vətənlərini düşmənlərindən xilas etməkdən aciz olan rusun qaraüzlü olan "ağ" generalları, özgələr üzərində ağalıq etmək xəyali-şeytənət-məalının [şeytani, fitnəkar mənalı xəyalının] sövqü ilə Dağıstan millətlərinin ittihadsızlıq [həmrəy olmamaqlarından] və nifaqlarından və millət xainlərinin əməllərindən istifadə ilə Şimali Qafqaza və ümum Dağıstana soxulub Dağıstan islamlarını təhti-əsarətə [əsarət altına] aldıqdan sonra, bugünkü fikri Azərbaycan türkləri üçündür.

İstər sağ, istər sol rusların hökuməti zamanında cəhənnəmə dönmüş olan vətənimizin, özümüzün və öz hökumətimizin hümmət və həmiyyəti sayəsində gündən-günə gözəlləşməkdə olan halı, həsud [həsədçi] imperialistlərin və onlara nökərçilik edənlərin xain qəlblərini və çürük beyinlərini narahat etmədədir ki, əslində zatən cəhənnəm əhli olduqlarına görə də vətənimizi təkrar cəhənnəmə döndərmək istəyirlər.

Cəhənnəm görmək istəyənlər o cəhənnəmi, əlbəttə, görərlər. Lakin bizim vətənimizdə deyil, bəlkə vətən övladımızın qeyrətli əllərində tutmuş olduqları şanlı silahın mərdanə zərbələri onları cəhənnəmə vasil etməklə arzularına çatdırarlar.

Azərbaycan türk və islamları rus qırmızı sollarının ayaqları altında inləyən vətəni ondan ötrü xilas etmədilər ki, sonra onu rusun qara sağlarının əli altına əsir versinlər! Bir bu qədər tökülən qanlar, qurban edilən canlar, viran olunan xanimanlar bahası ilə istirdad edilmiş [geri alınmış, yenidən ələ keçirilmiş] olan hüququmuzu əlimizdən almaq istəyənlər, o əl sahiblərinin türklük və islamlığa məxsus qeyrət və namuslarından, əzm və səbatlarından bixəbər olmalıdırlar ki, bu cürə xam xəyallara düşürlər.

Hökumət ilə camaatımızın sanki bir ağızdan çıxan "ölmək var, dönmək yoxdur" şüarı, görünür ki, hələ qara denikinlərin qulaqlarına çatmayıbdır. Onun üçündur ki, bizi təhdidə cəsarət edirlər...

Biz bilirik ki, Denikinin bizə qarşı hazırlamaqda olduğu təhlükə böyükdür. Yəqinimizdir ki, denikinlilər üzərimizə böyük bir qüvvət ilə hücum edəcəkdirlər. Lakin qorxmayırıq, bu təhlükəni dəf etmək yolundakı əzm və səbatımız ondan daha böyük və daha qüvvətlidir.

Düşmənin, haqsız düşmənin zor və qüvvəti ilə bizi qorxutmaq istəyənlər bunu bilməlidirlər ki, iki milyonu mütəcaviz olan [keçən] Azərbaycan türk və islamlarının zərurət məqamında hamısı da olmasa, yarısı əsgərdir. Bir türk əsgərinin də qiymətiəsgəriyyəsini mülahizəyə alsaq, bizi düşmən zorla deyil, düşməni biz zorumuzla qorxutmaq daha səhih ədd [hesab] olunar zənnindəyik.

Bu üzdən qara təhlükəni dəf etməkdə dost və düşmən qabağında ağ üzlə çıxmağımıza qüvvətli bir ümid bağlayıb da, heç bir şübhə etməməlidirlər.

*Hacıbəyli Üzeyir*

## ÜMİDİMİZ BƏRKƏMALDIR

Eyicə bir zamandan bəri məmləkətimizdə əhali arasında dövran edən Denikin məsələsi Azərbaycan əhalisini bu təhlükəyə qarşı çox böyük hazırlıqlara sövq eylədi. Hələ bu yaxınlarda Denikin ordusunun Dərbəndə gəlməsini eşidincə, camaat büsbütün ayaqlandı. Çünki Denikin gəlir söyləndikdə məmləkətimizə rus istibdadının gələcəyini və məmləkətimizdə rus bayrağının təliq olunacağını [asılacağını] əhalimizin həpsi də bilir. Bundan maəda [bundan başqa], rus istibdadının da nə olduğunu içimizdə bilməyən və görməyən yoxdur. Rus istibdadının zülüm və fənalıqlarını camaatımız tarixlərdə oxuyub da öyrənməmişdir. Başqalarından rəvayətən də eşitməmişdir. Daha rus istibdadından ayrılalı və rus istibdadının təhəkkümündən qurtulalı iki sənə olur. Bunu həpimiz gözümüzlə gördüyümüz üçün hər birimiz birər dəfə feviz, daha doğrusu birər canlı tarixiz. Bundan da sərf-nəzər əvvəlki yaşamımızla şimdiki yaşamamız arasındakı fərq dəxi xatirimizdən çıxmamış və o fəci mənzərələr isə gözümüzün önündən qaib olmamışdır. Bunun üçün əhalimiz gündən-günə qəzetə həvadislərinə baxaraq fədakar və həmiyyətli əhalimiz, hökumət və istiqlaliyyətinə, vətən və millətinə mühibb və müti olan [sevən və itaət edən] millətimiz əlyövm [bugünkü, indiki] saatda pək böyük hazırlıqlar qarşısında bulunur.

Bizimlə həmhal olan Gürcüstan dövləti qonşumuz da bu təşəbbüsə müştərəkdir.

Şu qədər deyə biləriz ki, istiqlaliyyət və məmləkətimizin bir təhlükədə bulunduğu zaman hökumətimizin əmr verməsinə və camaatı silah başına dəvət eyləməsinə məhəl [yer] qalmaqsızın, nəcib və möhtərəm əhalimiz kəndiliyindən var qüvvəti və olanca qeyrəti ilə silahi-həmiyyətə sarılaraq meydani-təhlükəyə atılacağına ümidimiz qəvidir [qüvvətlidir].

Məmləkət və istiqlaliyyətimizə əl uzatmaq fikrini bəsləyənlər bunu eyicə bilsin ki, bizdəki rə'sikarda [iş başında] olanlar Dağıstanda olduğu misilli məmləkəti satmaq fikrini daşıyan bir hökumət məmuru olmadığı kimi, eyni zamanda da hökumət və ordumuzun amal və əfkar və hərəkatına səktə [zərər] verəcək hail [maneə] və tərəfgirlik də yoxdur.

Məmləkət və millətimizin müqəddəratını əlinə alan hökumətimiz bu məmləkət və millətin səlaməti uğrunda nə kimi bir amal və əfkarda isə, hər vaxt hökumətimizə zəhir [arxa, köməkçi] və yardımçı olan millət də eyni amal və əfkardadır.

Şimdiki hal[da] müharibəyə gedəcək olan bir əsgərə əzhərcəhət [hər cəhətdən] lazım olan şeylərin kaffəsini [hamısını] fədakar əhalimiz kəndi həvəsi və arzuları ilə hazırlamışdır.

Bundan əvvəl əhalimizdə əsgəri təlimlərini bilməmək kimi bir nöqsanlıq var idisə, şimdi bu nöqsanlıq da gündən-günə ikmal edilməkdədir [təkmilləşməkdədir]. Hətta əsgərliyi olmayan əhalimiz icabında [yeri gəldikdə] müharibəyə bir hazırlıq olmaq üzrə cümə günləri kəndi sövq və ixtiyarları ilə müntəzəm bir qiteyi-əsgəri [hərbi dəstə] halında şəhərin hər tərəfinə toplanıb böyük bir həvəslə şəhərin dişarısında uzaq məsafədəki kazarmalara gedərək təlim yapıb öyrənirlər.

Əhalimiz hər xüsusa hazırlanır və hazırdır. Bizim millətimiz üçün müharibəyə getmək və müharibədən qaçmamaq ta əcdadımızdan irsən intiqal eyləmiş [gəlib çatmış] bir xislət, müharibliк, cəngavərlik, silahşorluq dəxi xəlqi, nəzəri və cibilli [təbii, xarakterik] bir fəzilətdir.

Hənuz tərbiyeyi-ictimaiyyə və tərbiyeyi-əsgəriyyə görməyib daha xanəsində ancaq annə tərbiyəsi görən 6 və 7 yaşındakı çocuqlarımızın gecə və gündüz caddə və məhəllatda [küçələrdə və məhəllələrdə] xüsusilə milli bayramlarda milli şərqilər oxuyaraq əsgəri təlimləri və əsgəri nümayişləri yapmaları ta çocuqlarımıza varıncaya qədər tərbiyeyi-milliyyəmizin təbiəti ilə təkəmmül [kamilləşmiş] və hissiyatımızın oyanmaq, vətən və millətimizə mərbutiyyətlə [bağlılıqla] yaşamaq haqqını da ehqaq eyləmiş [yaşamaq haqqına layiq olmuş] və hər surətlə mövcudiyyət göstərmək kimi bir fikri-istedad və qabiliyyət sahibi bir millət olduğumuza həqiqi bir işarətdir. Təbiidir ki, böyləsi çocuqların böyləcəsinə də babaları olacaqdır.

Azərbaycan Cümhuriyyətinin bidayəti-elanından [elan edildiyi vaxtdan] şimdiyə dəyin məmləkətimizdə yapılan milli bayramlarda, ələlxüsus keçən günkü İstiqlaliyyət bayramında böyük və kiçik, qadın və erkək və əli-ayağı tutanların kaffəsi [hamısı] əllərində birər istiqlaliyyət bayrağı olduğu halda hürriyyət və istiqlaliyyətlərini təbcil və təqdis [ucaltmaq və əzizləmək] üçün Parlaman dairəsinin önündə müəlləq [asılmış] böyük və müəzzəm [əzəmətli] bayrağı qarşılamaqdan başqa, xanə və dükanlarının qapılarını bayraqlarla təzyin etmələri [bəzəmələri] və o günün sürururuna [sevincinə] səmimi və ciddi bir qəlblə iştirak etmələri millətimizin hər vaxt müstəqillən yaşamaq haqqına malik və mövcudiyyətlərini də mühafizə etməyə layiq bir millət olduğunu dəfəatla [dəfələrlə] isbat eyləmişdir.

Deməк istəriz ki, hökumət və millətimiz ötədən bəri müttəhidül-amal və müttəhidül-əfkar [eyni arzuda və eyni fikirdə] olduğu üçün ümidimiz də sağlam və istiqbalımız da [gələcəyimiz də] əmin və mətindir.

Milyardlarca fədakaranın [fədakarların] qanı bahasına ələ keçən bu hürriyyət elə qolaycasına bir daha müstəbid əllərə keçməyəcəkdir.

Dağıstan müqəddəratı ilə oynayan bir-iki xaini-din və xainimillətin [dininə və mil-lətinə xəyanət edənlərin] mənafeyişəxsiyyələrinə qapılaraq alçaqcasına olan hərəkatının nəticeyiseyyiəsindən [mənfi nəticəsindən] bilistifadə [istifadə etməklə] Dağıstanda oynanılan Denikin rolları Azərbaycan məmləkətinə girməyəcəkdir.

Aldadacaq olarlarsa, aldanmayacağız və mərd-mərdanə gələcək olarlarsa, müdafiədən geri qalmayacağız. Hökumətimiz daima tədqiq və bir dəqiqə laqeyd bulunmamaqla bərabər, lazım gələn tədabir[i] də ittixaz edir [tədbirləri də həyata keçirir]. Hökumət və istiqlaliyyətimizin davam və bəqası və məmləkət və millətimizin səlamət və səadəti üçün hər nə surətlə çalışılacaqsa, millətimiz də hökumətimizin əmrini icra etməkdən geri qalmayacaqdır.

Məmləkət və millətin, irz və namusun səlaməti uğrunda çalışmağı deyil hökumət, Allah, peyğəmbər əmr və irz və namusumuzla şərəf və heysiyyət və hüquqi-milliyyəmiz də icab və iqtiza etdirir. Allahına, peyğəmbərinə, irz və namusuna, məmləkət və millətinə zərrə qədər məhəbbəti və zərrə qədər namus və vicdanı olan bir adam böylə bir zamanda hər şeyə köks gərməkdən və hər bir fədakarlığa qatlanmaqdan əsla geri qalmayacaqdır və həm də qalmaz. Zira, az zaman əvvəl bir az becəriksizlik üzündən əllərinə fürsət düşdükcə bizlərə yapılan zülüm və həqarətlər nə qəlbimizdən silinmiş və nə də gözümüzün önündən qaib olmuşdur.

İştə, bu halları görən, böylə inqilabları keçirən millət bir daha bu kimi halları görməmək üçün bir dəqiqə uyumaz və uyumayacaqdır. Bunda ufacıq bir qeyrətsizlik üzündən, xudanəkərdə [Allah göstərməsin], böyük bir təhlükəyə düşərsək, dünya baqi qaldıqca islam tarixlərində lənətlərlə yad olunacağımız kimi, yarın da ruzi-məhşərdə [məhşər günündə] yaxamız şəhid babalarımızın qanlı pəncələrində qalacaqdır.

Hökumətin mucidi-müəssis[i] [meydana çıxaranı və qurucusu] olub, növcah [iş başına yeni keçmiş] bu hökumətin bidayəti-təşəkkülü [təşəkkülünün başlanğıcı] olan bu zamanlarda çalışanlar isə biləks [əksinə], tarixlərdə şanlı səhifələr işğal ilə əbədiyyən də rəhmət ilə yad olunacaqdır.

Bunun üçün əlimizdəki istiqlal bayrağını yerə düşürməmək və məmləkətimizə rus istibdadını soxmamaq xüsusunda bir tək adamımız və bir damarımız atıncaya qədər namus və istiqamətimizlə çalışmalıyız və çalışacağız.

Məclisi-Məbusanımızın pəncşənbə [cümə axşamı] günkü müzakirəsində Rəisi-hökumət möhtərəm [Yusifbəyli] Nəsib bəy əfəndi cənabları ilə möhtərəm Parlaman üzvlərinin məmləkət və istiqlaliyyətimizin təhlükəyə düşdüyü zaman bunun səlaməti uğrunda bütün əfkari-ümumiyyəyi-millət müvacihəsi [bütün millətin ictimai rəyinin siması, ifadəsi] olan o məqamda və o məqamı da təmsil edən kürsiyi-xitabətdə millətə qarşı vermiş olduqları vəd və qərarlar boşa getməyəcəkdir.

Və bu zəvatın [şəxslərin] vəd [və] qərarlarının mədlulu olan əfalı [vəd və qərarlarından aydın olan işləri] bizzat [şəxsən] Azərbaycan milləti yerinə gətirəcəkdir.

Rus istibdadı zamanında amal və əfkari-müstəbidanəsi sayəsində general olmuş bir taqım müstəbidlərin idareyi-istibdadı, ağır boyunduruğu və əsarəti altına girməmək üçün son nəfəsinə qədər çalışan Azərbaycan milləti olacaqdır.

Millət və milliyyəti, sətvət [güc] və əzəməti, iqbal və istiqbal və istiqlaliyyəti ilə yaşayan yenə Azərbaycan milləti olacaqdır.

Xülasə, hökumətimizin siyasətini təqib xüsusunda əlindəki qələmi millət və ordumuzun süngüsü mərmər kimi isə, o süngünün axıdacağı qan olacaqdır.

Ölməkdən qorxan bir millət daima ölməyə məhkum və ölüdür. Və ölməkdən qorxmayan və ölməyə hazır bulunan bir millət isə hər vaxt sağ və hər vaxtı yaşamağa malikdir.

Binaənileyh [ona görə], bizlərdə ölüm təhlükəsindən qorxmaq olmadığı üçün bizlər yaşamaq haqqına malik və yaşamağa da layiq bir millətiz. Bununla bərabər, ölümdən qorxaraq övrət libası geyib də, xanəsində övrət misilli oturmaq kimi bir dənaəti irtikab edəcək [alçaqlığı işləyəcək] olan adamlarımız da olmadığından, əlhasil [sözün qısası], namussuzca yaşamaqdansa namuskaranə ölməyi də hər vaxt tərcih elədiyimizdən dolayı, yaşamaq xüsusunda atimiz [gələcəyimiz] mətin, iqbal və istiqbalımız parlaq və ümidimiz dəxi bərkəmaldır [möhkəmdir, yerindədir].

*Çubuqçuzadə Yusif Camal*

## EL ORDUSU

Bu ordu, digər işlərdə görüldüyü kimi, firqə, ziyalı və dövlətlilərin təşəbbüsü ilə deyil, bu dəfə ancaq elin təşəbbüsü ilə əmələ gəlmişdir.

Bu ordunu bazar əhli, kəsbkar xalq, ziyalıların "qara camaat" adlandırdıqları camaat əmələ gətirmişdir.

Bu camaat baxmış ki, böylə mühüm bir zamanda onun köməyi lazım, özünü müdafiə edəcəksə, özü edəcək. Bunu isə böylə bir zamanda daima irəlidə olanlardan heç kəs düşünməyir və heç kəs də bunun təşəbbüsündə bulunmayır. Camaat özü bu barədə düşünmüş və təşəbbüsə başlamış.

El ordusuna girmək istəyənlər siyahı olmağa başlamış, iki həftə müddətində 500-600 nəfər yazılmış və məşqə başlamış.

Keçən cümə günü mən Salyan qışlaları [kazarmaları] yanında bu ordunun tamaşasına getmişdim. Həqiqətən, böyük və müəssir [təsirli] bir tamaşa idi. 60 yaşında ağsaqqal qocalarından ta 15 yaşında üzünə tük gəlməmiş uşaqlarınadək burada iştirak edirdi.

Toz içində və gün altında əsgərlik məşqi öyrənən bu el ordusunu hər kəs görsəydi, mütəəssir olardı.

İnsan bunlarda olan həvəsi görüncə yəqin edir ki, bu millət özünü tanımış, vətən və istiqlaliyyətin nə olduğunu kamalınca anlamışdır.

İnsan bu tamaşanı seyr etdikcə, ulu babalarımızın haqqında söylənən:

*"Hər zaman kişnəsəydi türkün atı,*
*Qırılırdı bir ölkənin qanadı"*

şeirinə inanar. İnanar ki, el bir şeyi icra etməyə qərar qoyduqdan sonra onun qarşısını heç bir qüvvə alammaz və hər yana üzünü çevirərsə, qalibiyyətdən başqa nəticə qazanmaz.

Görünür ki, bizim camaatımızda da babalarının damarlarında oynayan qan oynamağa başlamış.

Görünür ki, bu millət özünün türk olduğunu anlamış və türklüyün heç bir vəchlə məğlub olmamasını camaata məxsus bir hisslə duymuş.

O duymuş ki, özünü müdafiə etmək istəyən müharibəyə hazır olmalıdır. O duymuş ki, özünü müdafiəyə hazır olan bir milləti məğlub deyil, ancaq məhv etmək olar. Bunun üçün də müdafiəyə hazırlanır.

Məşq saat 12 radələrində bitdikdən sonra nizami səflərlə [cərgələrlə] Təzəpir məscidinə gedərkən, qoca kişilərin: "İrəli, irəli, Azərbaycan, irəli!" əsgəri nəğməsi sədaları, hamı musiqi nəğmələrindən mütəəssir və ülvi idi.

El ordusu müəssisləri [qurucuları] tərəfindən vəkalətən ümum vətəndaşları vətənin böylə təhlükəli bir halında bu el ordusuna qoşmağa dəvət edirəm.

Vətəndaşlar! Bunu bilməlisiniz ki, bu dəfə gələcək bəladan özümüzü ancaq özümüz müdafiə edə biləcəyiz. Keçən dəfə bizi daxili və xarici düşmənlərdən müdafiə edən müdafemizə [müdafiəçimizə] ümid etməməliyiz, özümüz müdafiəyə hazırlanmalıyız.

Bunun üçün də müdaifəyə iqtidarı olan hər bir vətən övladı el ordusuna gəlməli və el müdafiəsinə hazırlanmalıdır.

Ümid edirəm ki, Azərbaycanın digər yerlərində də Bakıda yapıldığı kimi el orduları yapılar və müdafiəyə imkanı olan hər bir vətəndaş vətənini müdafiə etmək məşqini öyrənər.

Axır, qarelərin [oxucuların] diqqətini buna da cəlb etmək istəyirəm: özünü daima camaatın namdar [adlısanlı] və qeyrətlisi hesab edən qoçularımız və özlərini camaatın başının sahibi hesab edən dövlətlilərimiz bu orduda iştirak etməyirlərdi. Onlar hələ pul qazanmaqdan və keyfdən ayılmamışlardır.

*M. R.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*5 iyun 1919*

Tənəffüsdən sonra iclas saat 2-də təzələnir.

**Sədr** - İclas davam edir. Parlaman müsaidə versə, növbəti bir az dəyişib Rəisi-vükəlanın [Baş nazirin] vəziyyətimizə aid bəyanatını dinlədikdən sonra hökumətə verilən sualı növbəyə qoyub, ondan sonra başqa məsələlərin müzakirəsinə keçərik. Etiraz yoxdursa, qəbul olunur. Söz Rəisi-vükəlanındır.

**Nəsib bəy Yusifbəyli** - Möhtərəm məbuslar! Bir neçə gün bundan əvvəl sizə ərz eylədim ki, Denikin nümayəndəsi tərəfindən rəsmi kağız aldıq. Bu rəsmi kağızı da sizə oxudum. Gördünüz ki, rəsmi kağızda istiqlaliyyətimizi tanıyırlar. Ancaq nə mən oxuyan zaman, nə də siz eşitdiyiniz zaman etibar etmədiniz.

O kağız ki yazmışdılar, onun mürəkkəbi qurumamış bir kağız da gəlib ki, ərz eyləmək istəyirəm. Oxuyandan sonra şübhəmizin nə qədər haqlı olduğunu bilərsiniz. Dünən böylə bir kağız gəlmişdir. *(Oxuyur)*

"Azərbaycan Cümhuriyyətinin Heyəti-Vükəla Rəisinə.

Surəti İngiltərə komandanlığına və Qroznı-Petrovsk qrupu komandanlığına.

Cənubi Rusiya Qüvayi-Müsəlləhəsi Ərkani-Hərb rəisi [Silahlı Qüvvələri Hərbi Qərargah rəisi] general-leytenant Lukomskidən Baş komandan əmri ilə göndərilmiş bir məktub iyun[un] 3-də mənə vüsul oldu [çatdı]. İşbu məktuba istinadən rəsmən sizə elam edirəm [bildirirəm] ki, Cənubi Rusiya Qüvayi-Müsəlləhəsi Azərbaycanı Rusiyadan ayrılmış hesab etməyir. Yalnız şu məsələ irəlidə Rusiyada təşkil olacaq verxovnı vlast [ali hakimiyyət] tərəfindən həllinə qədər Azərbaycanın istiqlaliyyətini münasib görür və tanıyır.

*Polkovnik Lazarev"*

Ruscasını istəsəniz oxuyum. O gün ərz etdiyim kimi bəlkə tərcüməsində səhv etmiş olam. *(Məktubu rusca oxuyur)*

*(Səslər: "Heç vaxt Rusiya olmayacaqdır!").*

*Görürsünüz ki, bu kağız genə kağızdır.*

*(Səməd ağa [Ağamalıoğlu] yerindən: "Elə onlar özləri də kağızdır!")*

Burada görürsünüz ki, Rusiya təşkil olunana qədər və orada verxovnı vlast olana kimi bizim istiqlaliyyətimizi tanıyır və sizə təhlükə yoxdur deyir. Əgər bu da doğru olsaydı və buna inanmaq olsaydı, yenə bir şey idi. Məəttəəssüf [təəssüf ki], bu da kağızdır. Bunun kağız olduğunu özləri tez vaxtda isbat eylədilər. Bu kağız ilə Petrovskdan Lazarevə və surəti Şattlvorta teleqraf gəldi. Bu kağızları və teleqrafları ərz edirəm, görəsiniz ki, bunların da mənası yox imiş. *(Oxuyur)*

"Polkovnik Lazarevə.

Surəti Bakıda İngiltərə Qüvayi-Müsəlləhəsi komandanı polkovnik Şattlvorta.

Hərbi.

Cənubi Rusiya Qüvayi-Müsəlləhəsi Baş komandanından işbu məzmunda teleqraf aldım. Azərbaycan Hökuməti Könüllü ordu hissələrinin Dağıstana hərəkətindən təşvişə düşmüşdür. General Dratsenko Petrovsk və Dərbəndin işğalı ilə kifayətlənib irəliyə getməyəcəyi xüsusunda təminat vermişdir. Əgər Azərbaycan Hökuməti tərəfindən üzərimizə hücum olunmaz isə öz tərəfimdən ordularımızın Zaqatala-Qafqaziya dağları və Qızılburun xəttindən irəliyə getməyəcəyini təmin edərəm.

Yekaterinodar, 18 may 1919.

Nömrə 7389.

Petrovsk, nömrə 3621.

*Tersk Dağıstan orduları komandanı*
*general ot kavalerii [süvari generalı] Erdeli."*

Həmin bu məzmunda Erdelinin özündən Lazarevə bir teleqraf var. Məzmunu bir olduğundan elanına ehtiyac yoxdur, zənn edirəm. Əgər arzu olunarsa, keçən teleqrafın ruscasını oxuyum. *(Keçən teleqrafı rusca oxuyur.)*

İkinci teleqraf budur. *(Ruscasını oxuyur.)* Çünki bu teleqrafda bir işarə, bir namyok [vurğu, işarə] var ki, razılıq və saziş ilə təyin olunan xətt!.. Təbii, bu xətti guya bir tərəflə təyin etmişlər. Bu barədə kimlərlə isə razılıq əmələ gəlmişdir. O tərəf də kim ola bilər? O tərəf də yəqindir ki, ingilislərdir. Bu teleqraflar mənə çatandan sonra təbiidir ki, burada İngiltərə Komandanlığı nümayəndəliyi ilə görüşməyi özümə borc bildim. Məlumunuzdur ki, general Kori buradadır. General Kori Zaqafqaziyada olan Müttəfiqlər qüvvələrinin Baş komandanıdır. Dünən onunla və Şattlvortla görüşdük. Teleqraflar onun qabağında idi, onlara da gəlmişdi. Qabaqca o, söz açdı. Dedi, bu teleqraflardan xəbərdarmısınız? Cavab verdim ona ki, mənası məlumdur. Soruşdu ki, nə tədbir görürsünüz? Əlbəttə ki, özgə bir cavab olmazdı. Əvvəlinci cavab onu dedim ki, vətənimizi mühafizət edəcəyik. Buna görə hər bir tədbir görürük və görəcəyik. Söhbət çox uzun oldu. Hamısını təfsilən ərz eləməyi artıq bilirəm.

Nəticəsində o mənə təminat verdi və dedi ki, bu dəqiqə bu teleqrafların mənasını öz tərəfimdən general Milnə xəbər verirəm. Müttəfiqlər Komandanlığının Denikin ilə sazişi barəsində dedi ki, heç bir saziş söhbəti ola bilməz və Denikin ilə xətt barəsində saziş olmaz və bir də general Denikinin bu hərəkatına general Kori pis nəzərlə baxır. Vətənimiz yolunda gördüyümüz təşəbbüsatımızı yersiz bilmir. Digər tərəfdən deyir, sizi təmin edirəm Bakıya o tərəfdən hücum olmaz. Çünki dəniz əlimizdədir. Deyir, əgər dava olsa, hüsn-təvəccöhümüz sizin tərəfinizdədir. Əlbəttə, əgər Bakıda və Azərbaycanda bu münasibətlə talan və iğtişaş olmaz isə. *(Soldan səslər: "Olmasa da özləri edərlər!")* Əlbəttə, cavab verdim ki, təbiidir, Bakıda və Azərbaycanda iğtişaş ola bilməz. Zatən Azərbaycan milləti isbat edəcəkdir ki, rus milləti əleyhinə bizim tərəfdən fəna müamilə [rəftar] ola bilməz. Amma təbiidir, düşmən nümayəndələrinə, rus millətinə fəna müamilə etməz. Əlbəttə, düşmən müəyyən olandan sonra, düşmən nümayəndələrindən xilas olmaq üçün lazımi təşəbbüs edəcəkdir. Buna da general Korinin razılığından başqa ayrı cavabı olmazdı. Demək, necə ki, görürsünüz, bu surətlə ingilis nümayəndələri ilə əvvəlinci görüşdə Şattlvort ayrı bir fikirdə idi. Bir növ guya bitərəf qalmaq fikri var idi. Amma, axırıncı dəfə Kori tərəfindən təminat verildi ki, Azərbaycan hüdudlarını heç kəs keçə bilməz. Hətta deyir, hər kəs keçsə, həbs edərik. *(Soldan gülüş)* Deməli, bu xüsusda təminat vermək istədi. Amma sözün doğrusu, təhlükəni biz özümüz gərək görək. Biz çox sözlər eşitmişik. Bu sözlərə də böyük məna vermək olmaz. İngiltərə kimi hürr bir məmləkət nümayəndələri yalan söyləməzlər. Amma bəzən də söylədikləri şeylər üstündə dura bilmədiklərini aşkar edirlər. Biz görürük bizə çox da vədlər verildi. Bizə dedilər ki, Dağıstan təhlükədə deyildir. Dağıstana kimsə hücum etməz. Denikin ancaq Petrovsku baza [üssülhərəkə] olaraq tutacaq, Petrovskdan bu tərəfə keçməz. Vaxtilə bizə bu təminatı verdilər. Bununla bərabər, Şattlvortun özü ilə danışıb bizə verdiyi təminatı dedim. Və bununla bərabər dedim ki, bu vədlərlə bizə mane oldunuz, ola bilərdi ki, sizin vədləriniz olmasaydı, biz Dağıstana böyük kömək göndərərdik və bəlkə Şimali Qazfqaziyada düşməni dəf edərdik. Daha bu gün Dağıstan məğlub və sərhədimiz təhdid altında olmazdı. Siz o vaxt vədələr verdiniz, bunun nəticəsi nə oldu? Nəticədə Denikin Şimali Qafqaziyanı tutdu.

Bundan maəda [başqa], ayrı vədlər də var idi. Bu vədlər tamamilə icra olunmadı. Bunu kimsə inkar etməz. İngiltərə Komandanlığı da inkar etməz. Bununla bərabər, hökumət İngiltərə Komandanlığının vədlərinə böyük məna verir. Fəqət burası da məlumdur ki, qonşuya ümid olan şamsız yatar. Özümüz hazır olmalıyız. İndiyə qədər əlbəttə ki, verilən vədlərin nə olduğunu özümüz bilirdik. Denikinlərin verdiyi vədlərin də mənasını bilirdik. Onların heç bir əhəmiyyəti olmadığını da cümləmiz bilirdik. O məqsəd ki, Denikin ordusu təqib edir, Rusiyanı bolşeviklikdən xilas etsin, onu əskisi kimi birləşdirə bilsin, bu o qədər böyük bir məqsəddir ki, Denikinin özünü təhlükə altına alır. Özləri üçün bu qədər böyük təhlükə olduğu zaman, arxada da özləri üçün böyük bir təhlükə təşkil etməzlər. Ancaq məəttəəssüf [təəssüf ki], o generallar özlərini bu kimi böyük məqsədlərlə Rusiyanı birləşdirmək üçün xüruc [çıxış] etmiş kimi göstərirlər. Halbuki onlar özləri Rusiyanı dağıtmışlardır. Rusiyanın çarizm hökuməti böyük səhvlər edirdi. Şimdi onun nümayəndələri də həman səhvləri edirlər. O generalların məqsədi Rusiyanın ehyası [bərpası] deyil, onların məqsədi bir millət tapmaqdır ki, ona hakim olsunlar. O, əlbəttə ki, kim ola bilər? O, Zaqafqaziya ola bilər. O, yeni təşkil edilmiş Gürcüstan ola bilər, Azərbaycan ola bilər. Ola bilər ki, Ermənistan Cümhuriyyəti də olsun.

Bugünkü tələbləri gündən-günə artır. Dünən Dərbənddən irəli gəlmək istəməyirdilər. Bu gün Qızılburuna soxulmaq istəyirlər. Əlbəttə, bunlar bəhanədir. Yoxsa onlar Qızılburunu nə edəcəklərdir? Məlumdur ki, Qızılburunun heç bir sövqül-ceyş [stratejik], ya başqa əhəmiyyəti yoxdur. Onlar Bakının suyunu kəsmək istəyirlər. Bununla bizim üzərimizə edəcəkləri hücumlar üçün zəminə hazırlayırlar. Hücum da bir tərəfdən deyil, Qara dənizdən də qara qüvvələr gəlir. Bu qara qüvvə bizimlə hər zaman dost olan Gürcüstan üzərinə də gəlir. Məqsədləri əski Zaqafqaziyanı ələ almaqdır. Plan çox açıqdır. Heç gizlətmək də istəməyirlər. Hər yerdə sərhəd məsələsini ortaya çıxarır və deyirlər ki, sonra baxarız, sizinlə düşmənliyimiz yoxdur. Ancaq sərhəd böylə olsun, filan yer filan olsun. Əlbəttə, iki tərəfi var. Ona görədir ki, qara qüvvələr təhlükəsi altında müharibə etmək ehtimalı da vardır. Azərbaycan ilk gündən müharibə əleyhinə olduğunu isbat etdi. Heç kəslə müharibə etmək istəmədiyini bildirdi. Hər yerdə sülh ilə işin içindən çıxmaq istədi. Bununla bərabər, indi etiraf ediriz ki, bugünkü məsələ həyat-məmat [ölüm-qalım] məsələsidir. Şimdi artıq heç bir güzəşt ola bilməz. Bu işdə bir adam qalıncaya qədər vətən və istiqlalı müdafiə edəcəyiz. Çünki bu iş ölmək-qalmaq məsələsini həll edəcəkdir. *(Sürəkli alqış)*

Bugünkü təhlükə yalnız bizim istiqlaliyyətimizə deyil, bu təhlükə bizim qəlbimizə, ruhumuzadır, Bakının üzərinədir. Bu barədə qan tökəcəyiz. Qan tökmək yaxşı deyil, lakin bu töküləcək qan müqəddəsdir. Əlbəttə ki, bu uğurda millət zəhmət çəkəcək. Bunun fəna cəhətləri var. Bununla bərabər, bunun yaxşı tərəfləri də vardır. Yaxşı tərəfi budur ki, Denikin bizim gözümüzü açdı, Zaqafqaziyada iki millət qardaş oldu.

Mən burada cəsarət edib deyə bilərəm ki, bu millət nümayəndələrinin başında olanlar – mənim özüm və gürcü millət nümayəndələrinin çox səhvləri var. Biz çox istədik ki, bu iki millətin arasını vuraq, fəqət olmadı. Bu iki millət isbat etdi ki, onların həyatı birdir. Həman millətlər – Gürcüstan ilə Azərbaycan bu təhlükə qarşısında birləşəcək, bir təni-vahid olacaqdır. Denikin təhlükəsinin də yaxşı cəhəti burasındadır. Sağ olsun Denikin ki, bizi birləşdirməyə xidmət etdi. *(Şiddətli alqış. Parlaman ayağa qalxaraq Gürcüstan nümayəndələrini alqışlayırlar. Nümayəndələr lojadan qalxaraq təzim edirlər. Alqış şiddətlənir.)* Bunu biliniz ki, bu məsələdə təhlükə hər iki millət üzərinədir. Bu təhlükəni hər iki millət bir təni-vahid kimi özözündən rədd edəcəkdir. Buna etimadım çoxdur. Şübhə yoxdur ki, həm Gürcüstan, həm Azərbaycan nə qədər mümkündür qan tökülməyə razı olmayacaqdır. Bu məsələnin sülhlə həll edilməsinə təşəbbüs edəcəkdir. Ancaq ümid etməyəlim ki, bu məsələ sülhlə həll edilsin. Hərgah onların yaman bir məqsədləri olmasaydı, böylə teleqraflar göndərməzdilər. Şimdi biz onların qarşısına çıxıb da vətənimizi müdafiə etdikdə, bütün cahan demokratiyasına bildirəcəyiz ki, biz haqqı müdafiə ediriz. Bulunmazsa da, haqq bizim tərəfdə olduğu üçün nəinki yalnız İngiltərə Komandanlığı, bütün dünya demokratiyası bizim tərəfdə olacaqdır. *(Alqış)*

## XÜSUSİ TELEQRAM

Teymurxanşura - Dağıstanın müvəqqəti hakimi iyunun 4-ü tarixi ilə böylə əmrnamə sadir etmişdir [vermişdir]:

"Baş naçalnik və Dağıstan qüvvələrinin komandanının əmri və Cənubi Rusiya Qüvayi-Əsgərisi [Hərbi Qüvvələri] Baş komandanı Denikinin iradəsi ilə Dağıstan Milli Qurultayı dəvət edilənədək Dağıstanın müvəqqəti hakimliyinə təyin edilirəm. Mən bu vəzifəni Dağıstanın xeyrindən ötrü öhdəmə götürürəm. Bu barədə ümum Dağıstana məlumat verirəm.

*General [Mikayıl Maqomedoviç] Xəlilov"*

İyunun 3-də Teymurxanşura şəhərinə Tersk Dağıstan qoşunlarının Baş komandanı general Erdeli varid olaraq [gələrək], şəhər nümayəndələri və ziyalılarının iclasında bəyan eylədi ki, dağıstanlıların dini işlərinə və iqtisadi məişətlərinə Könüllü ordu müdaxilə etməyəcəkdir. Dağıstan əhalisi özü istədiyi kimi daxili işlərini idarə edə bilər. Könüllü ordu Dağıstandan tələb edəcəkdir ki, bolşevizmlə mübarizədən ötrü könüllülərlə birlikdə çalışsınlar. Dağıstanlıların nə surətlə bolşevizmlə [mübarizədə] iştirakları xüsusunda əlavəli əmrnamə sadir ediləcəkdir. Bu barədə müvəqqəti Dağıstan hakimi general Xəlilovun əmrnaməsi ilə Dağıstan əhalisinə məlumat verirəm.

*Müvəqqəti hakim əvəzinə polkovnik Musalayev*

## SÜLH ƏTRAFINDA

*Royter agentəliyindən*

Almaniya istəyir ki, İtaliya ilə ticarət əlaqəsini başlasın. İtaliya-İsveçrə sərhədində külli Almaniya malları, velosiped, ziqiymət [qiymətli] şeylər, əczayi-kimyəviyyə [kimyəvi dərmanlar] və maşinalar vardır. Çox ucuz qiymətə bu mallar İtaliyaya təklif edilir. İtaliya pulunun kursu İngiltərədə, Fransada və Amerikada qiymətli olmadığından, biləks [əksinə], Almaniya da İtaliya üçün əlverişli olduğundan, çox mümkündür ki, İtaliya Almaniya ilə ticarəti əlaqəni başlasın.

**Amerikanın sülh müahidənaməsindən imtinası**

Paris - Amerika sülh mürəxxəslərindən [nümayəndələrindən] doqquz nəfəri indiki sülh müahidənaməsinin [sazişinin] ziddinə danışmaqdadır. Bunlardan birisi konfransda iştirakdan imtina edib demişdir ki, Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] müharibənin qabağını saxlaya bilməyəcəkdir. Nəticədə Amerikanı müharibəyə sövq edəcəklərdir.

- "Havas" agentəliyi xəbər verir, Dördlər Şurası qət eyləmişdir ki, Almaniya sülh mürəxxəsləri müahidəni imzadan imtina etdikləri təqdirdə, marşal Foş bilatərəddüd [tərəddüdsüz] Almaniya üzərinə yürüş edəcəkdir. Eyni zamanda, Almaniyanın ablukası [blokadası] başlanacaqdır. Reynelend Berlinə məlum edir ki, sülh danışıqlarının dayandırılması Almaniya üçün intihar olacaqdır. Müttəfiqlər bu rəydədirlər ki, Almaniya müahidənaməni tamamən qəbul, ya tamamən rədd etməli.

**Müahidənamənin almanlara təslimi**

London - İclasda nitqlər ingilis dilində söylənirdi. Konfransın baş katibi öz yerindən qalxıb almanlara yaxınlaşaraq sülh müahidənaməsini Rantsauya təqdim eyləmişdir. Rantsau nemes dilində bir nitq söyləyərək, onun nitqi sonra ingilis və fransız dillərinə tərcümə edilirdi. Rantsau demişdir ki, almanlar özlərinin məğlub edildiklərini danmayırlar. Onlar bilirlər ki, Almaniya ordusunun gücü sınmışdır. Fəqət müharibədə yalnız almanlar müqəssir deyildirlər. Almanlar heç bir vaxt buna razı olmazlar. Hərçənd müharibə məsuliyyətinin bir hissəsi Almaniya üzərinə düşürsə də, amma bütün Avropa müharibənin başlamasında müqəssirdir. Zira axırıncı 50 ildə bütün dövlətlərin cahangirlik məqsədləri beynəlmiləl əhvalı zəhərləmişdi.

Rantsau nitqində davam edərək deyir: Müharibə zamanında Almaniyanın bəzi hərəkətlərinin cinayətli olduğunu etiraf edir. 1914-cü ildə Almaniya Reyxstaqının qərarını məclisə bildirərək deyir, o zaman Reyxstaq Almaniyanın Belçika haqqındakı rəftarında müqəssir olduğunu etiraf etmişdi. Və Almaniya hazırdır ki, Belçikanın zərərlərini iadə eyləsin [ödəsin]. Almaniya çox da müdafiəsiz deyildir. Zira Müttəfiqlər qərar qoymuşlar ki, Vilsonun 14 maddəsini yürütsünlər. O maddələr ki, bütün cahan onun tərəfdarıdır. Almaniya məcburdur, Belçikanı və Şimali Fransanı emar eyləsin.

Rantsau nitqini xitama yetirərkən, hamının Cəmiyyəti-Əqvama daxil olmalarını arzu eyləmişdir.

Klemanso nitq deyərkən ayaq üstündə durduğu halda, Almaniya nümayəndəsi Rantsau öz yerində əyləşdiyi halda nitq söyləyirmiş.

**Sülh müahidənaməsinin bə'di [davamı]**

Şura – Beş düvəli-müəzzəmə [böyük dövlət] nümayəndələrindən ibarət olacaqdır. Bunlardan əlavə, dörd üzv də daxil olacaq. Bunlar da ümumi iclas tərəfindən intixab olunmalıdır [seçilməlidir]. Bu Şura heç olmazsa ildə bir dəfə iclas etməlidir. Şurada üzvləri olmayan dövlətlərə onların məsələləri müzakirə edildiyi zaman dəvətnamə göndəriləcəkdir. İclasda dövlətlər səs verəcəkdirlər. Hər bir dövlətin bir səsi və bir nümayəndəsi olacaqdır. İclas və Şura tərəfindən olan qərarlar müttəhidül-rəy [yekdilliklə] qəbul edilməlidir.

Silahlanmaq – Şura bütün dövlətlərin silahının əskilməsi üçün layihə hazırlamalıdır. Bu məsələ də sonradan Şurada müzakirə və qəbul edilməlidir. Bu layihə təsvib [təsdiq] edildikdən sonra heç bir üzvün ixtiyarı yoxdur ki, müəyyən miqdardan ziyadə silahlı qüvvəyə malik olsun. Hər bir dövlət özünün hərbi məramnaməsi barəsində məlumat verməlidir. Daimi Komissiya isə hərbiyyə və bəhriyyə [dənizçilik] məsələlərində Şuraya müavinət [kömək] etməlidir.

Müharibənin qarşısını almaq – Müharibə zamanında yaxud müharibə xətrəsində [təhlükəsində] Şura lazımdır ki, iniqad edib [toplaşıb], əhvali-ümumiyyəni [ümumi vəziyyəti] müzakirə eyləsin. Üzvlər mübahisəli məsələləri hakəm [arbitr] yaxud İstintaq Komissiyasına verməlidirlər. Müharibə məsələsi Həkəmlər Məhkəməsinə yaxud komissiyaya veriləndən üç ay sonrayadək müharibə edilməməlidir. Üzvlər həkəmlər qərarına əməl etməlidirlər. Həkəmlərin qərarına əməl edən tərəflə müharibə etməməlidir. Hərgah üzvlərdən birisi əməl etməzsə, Şura lazım gələn tədbirləri ittixaz etməlidir [tədbirləri görməlidir]. Daimi beynəlmiləl məhkəmə layihəsini Şura düzəldəcək və bütün mübahisəli məsələləri həmin beynəl-miləl məhkəmə həll edəcəkdir. O üzvlər ki, həkəm məhkəməsinə mübahisəli məsələləri təqdim etməyirlər, onlar Şuranın ya iclasın qətnaməsinə əməl etməlidirlər.

## QƏZETƏLƏRDƏN

**Lloyd Corc və Könüllü ordu hərəkatı**

Tiflisdə alınan xəbərlərə görə, Gürcüstan Hökumətinin Denikinin Zaqafqaziya üzərinə hücumu barəsində göndərdiyi simsiz teleqraf Londonda Avamlar Kamerası, İngiltərə Hökuməti və İngiltərədə olan Gürcüstan nümayəndəsi [David] Qambaşidze tərəfindən alınmışdır. Qambaşidze bu barədə Lloyd Corc ilə uzun müsahibədə bulunmuşdur. Lloyd Corc Qambaşidzeni inandırmışdır ki, Denikinin Zaqafqaziya cümhuriyyətləri üzərinə hərəkatı dayandırılacaqdır.

**Türküstanda**

Cəbhə xətti Tecandan bir neçə verst Qəhqə mövqifinədək [stansiyasınadək] irəli gəlmişdir. Qəhqə mövqifi yanında olan körpü Könüllü ordu tərəfindən xarab edilmişdir. Könüllü ordu geri çəkildikcə dəmir yolunu xarab etməkdədir. Bolşeviklər xarab olan körpünü təmir etməkdədirlər. Hamı dövlətlilər Aşqabaddan çıxıb qaçmışlar. O cümlədən İran dövlətliləri də İrana qaçırlar.

Qırmızı ordu qüvvəsi Çin, latış və çeçen dəstələrindən ibarətdir. Donanması 9 mina gəmisi, 20 müxrib gəmilərdən [destroyerdən] ibarətdir. Bu donanmanın bir hissəsi xəbər verildiyi üzrə Aleksandrovsk fortu yanında ingilislər tərəfindən qərq edilmişdir. Bolşeviklərin dəniz qüvvəsini "Polyus" paroxodunun sabiq komandir müavini bir nəfər Saks nam [Saks adlı bir nəfər] idarə etməkdədir. Bakı ticarət iskələsinin sabiq komissarı Klevtsov 2-ci admiraldır. Bolşeviklərin hamı əsli-hələri [bütün silahları] qaladadır. Bolşeviklər ingilislərin oraya atacaq bombalarından çox qorxurlar. Əhalinin var-yoxu həcz [müsadirə] edilməkdədir. Axırıncı alınan xəbərlərə görə, balıqçılardan bir neçələri güllələnmişdir.

**Hacı-Tərxanda müharibə**

Xəbər verilir ki, Hacı-Tərxana [Həştər-xana] bomba salmaq qəsdi ilə Petrovskdan uçub getmiş olan İngiltərə hidroplanı Hacı-Tərxan şəhərinin küçələrində müharibə olduğuna görə, öz vəzifəsini ifa edə bilməyib geri qayıtmışdır. Hacı-Tərxanda böyük yanğınlar var imiş. Qırmızı ordu əsgərləri naməlum dəstələrlə müharibə etməkdə imişlər.

- Hacı-Tərxandan gələnlərin rəvayətinə görə, əhalinin əhvalı fənadır. Əhali hər bir tərəfdən olursa-olsun bolşevik hökuməti əlindən xilas olmağı gözləyir. Şəhərdə ticarət bilmərrə dayanmışdır.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 8 iyun (Bazar günü) tarixli 198-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Müsəlman bazarı da bağlanmışdır. Şəhərdə aclıq hökmfərmadır [hökm sürməkdədir]. Əhali ancaq bir çörək və bir də vobla [külmə] balığı ilə güzəran edir. Şəhərdə yeməyə başqa bir şey yoxdur.

- "Novı den" qəzetəsi çeçen milləti nümayəndələrinə xitabən İngiltərə hərbi heyəti rəisi general Briqqsin nitqini dərc eyləmişdir. Nitq böylə başlanır:

*"Hər şeydən əvvəl mənə müsaidə [icazə] veriniz sizə bəyan edim ki, mən kim sifəti ilə buraya gəlmişəm, tainki hamınıza mənim nə söyləyəcəyim bəlli olsun. Mən İngiltərə Hökuməti tərəfindən İngiltərə hərbi heyətinin rəisi sifəti ilə general Denikin yanına göndərilmişəm, tainki onun ordusuna silah, ləvazimi-hərbi və hər növ davaya lazım olacaq şeylər verim. Bunlarla Denikin bolşevizmaya qarşı müharibə edəcəkdir. İngiltərə Hökuməti Rusiyanın daxili işlərinə qatışmaq istəməyir. Fəqət bolşeviklərə qalib gəlmək üçün general Denikinə müavinət [kömək] edir. İngiltərə qoşunları Zaqafqaziyaya gəlmişlər ki, türklərin sülh şəraitinə əməl edib-etməyəcəyinə aşna olsun. O şəraitə ki, onlar[a] qalib olarkən biz onlara diktə etmişdik. İngilis Hökuməti bu və ya digər siyasi cərəyana müavinət etməyir. Yalnız arzusu budur ki, Sülh Konfransında məsələlər həll edilənədək asudəliyi və asayişi mühafizə eyləsin. İngilislər general Denikinə müavinət edərkən, onun alicənablığına inanırlar. Və inanırlar ki, Denikin köhnə üsulu bərpa etməyəcəkdir, Rusiya əhalisinin arzusu üzərinə əsas qoyulacaqdır. Rusiyada şimdi görünür ki, xırda millətlər mükəmməl istiqlaliyyətə maildirlər. Öz qonşuları ilə olan müamilələrində [rəftarlarında] burası anlaşılır. Hərgah siz mənim məsləhətimə qulaq verməkistəsəniz, başa düşərsiniz ki, xırda millətlər bir-birindən ayrı yaşaya bilməzlər. Onlar hər bir cəhətdən bir-biri ilə rabitədədirlər. Mən eşitmişəm, siz əvvəl də çox da sülhlə, müsalimətlə [əmin-amanlıqla] yaşamayırdınız. Sizə məsləhət görürəm ki, dəmiryol təmirinə fürsət verəsiniz. Öz aranızda olan müsadiməni [toqquşmanı] tərk edib, əlinizdən gəldiyi qədər Denikinə bolşevizmlə müharibə etmək üçün müavinət edəsiniz.*

*Mən ümidvaram ki, Denikin öz tərəfindən çalışacaqdır ki, sizin sülh və müsalimət içində yaşamanızı təmin eyləsin. Sizin aranızda özgələr təbliğatda bulunurlar, onlara inanmayınız."*

## TÜRKİYƏDƏ

**İzmirin işğalını protesto**
Türkiyə, Havas, Royter
Trabzon

İstanbuldan teleqrafla xəbər verir ki, dün Darülfünunda bilümum müəllim və müəllimələr böyük bir ictima əqd [yığıncaq təşkil etmiş] və İzmirin işğalı matəminə bütün vicdanları ilə iştirak və bir çox nitqlər təatisi ilə [qarşılıqlı nitqlər söyləməklə] həyəcanlı saatlar yaşamışlardır.

Hüseyn Raqib bəy: Haqq naminə işlənmiş ən böyük haqsızlığın qəhri altındayız. İstiqlalının qürurunu yeddi əsrdən bəri mühafizə edən millətimiz daha bir əsrlik ömrü olmayan törədi [yeni ortaya çıxmış] bir dövlətin zülümü altına girəmməz. Bu gün müharibədən cansız dönən türk yenidən canını fəda edə bilər.

Naqiyə xanım: Avropa bir qarış torpağımızı belə yunana vermək istəyərsə, biz qardaşlarımız və çocuqlarımız və babalarımızla tarixə şanlı bir surətdə qeyd olmaqdan çəkinməyəcəyiz, demişdir.

Bədəhu [sonra] bütün heyət Türkiyənin təqsimini [bölünməsini] mütəzəmmin [nəzərdə tutan] bir müahidəni [sazişi] imza buyurmamasını, millətin haqq və həyat naminə ifnayi-mövcudiyyətə [varlığını qurban verməyə] qərar verdiyini müqəyyid [qeyd edən], qələmə aldığı teleqrafnaməni padşahımıza təqdim etmişdir.

*(Təfsilatı gələn nömrəmizdə.)*

İngiltərənin islam və türk aləminə qarşı ənənəvi müzahirət və münasibatı [köməyini və münasibətlərini] təşdid və təqviyə [artırmaq və gücləndirmək] məqsədilə şəhərimiz islam və türk mütəfəkkirininin [mütəfəkkirlərinin] iştirakı ilə bir İngilis Mühibbi Cəmiyyət təşəkkül etmiş və bəyannaməsini hökumətə təqdim etmişdir.

Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] Kütahya məbusi-əsbaqı [keçmiş Kütahya millət vəkili] [Əhməd] Fərid bəy, Məclisi-Vükəlaya [Nazirlər Kabinetinə] Rəşid Akif, Birinci fəriq Rza paşalar təyin edilmişlərdir.

**İzmirdə**

Müsəlman əhalisi arasında həyəcan olduğundan yunan komandanlığı İzmir şəhərini və İzmir vilayətini mühasireyi-əsgəriyyə [hərbi mühasirə] altında elan etmişdir.

**Türkiyənin gələcəyi**

"A. P." qəzetəsi xəbər verir ki, İngiltərə Türkiyə torpağının tamamiyyət əsasını müdafiə edir. Lakin Türkiyənin Yevropa dövlətlərindən birinin təhti-himayəsində [himayəsi altında] olmasını lazım görür.

## MİLLİLƏŞDİRMƏK MƏSƏLƏSİNƏ AİD

"Azərbaycan" qəzetəsinin 193-cü sayısında [Ağayev] Tofiq Nurəddin əfəndinin "Millilləşdirmək məsələsi" sərlövhəli intiqadatını [tənqidlərini] oxudum. Mətbuatımızda görünən bir çox qəvaid [qayda, qaydalar] xətalarını göstərdikləri kimi, təlif etdiyim "Uşaq gözlüyü"nün xətt və imlası haqqında da bir qaç söz söyləmişlərdi.

İntiqad [tənqid] mətbuatın ələyidir. İntiqadın lisan və ədəbiyyata nə qədər böyük faydası olduğunu bildiyimdən, təqdir edirəm. Lakin intiqad haqlı, yerli və nəzakət dairəsində olmalıdır ki, qarelərə [oxuculara] faydası toxunduğu kimi, mühərrirlər [yazıçılar, müəlliflər] də səhv və xətalarında qənaət hasil edərək istifadədə bulunsunlar.

"Uşaq gözlüyü"nün xətt və imlası haqqında yürütdükləri fikir və mühakiməsini bir dürlü qane edəmmədiyindən, cavaba məcbur oldum. "Uşaq gözlüyü"nün xətt və imlası haqqında yazırlar ki:

*"Rus üsulu təqlid edilərək, cizgilər içində türk yazısı öyrədilmək istənmiş. Fəqət müəllif türk xütutuna [xətlərinə] vaqif olmadığından, yazı üsuluna, zövqi-səlimə və bədaye [estetika] fənninə o qədər zidd bir şəkildə tərtib etmiş ki, Qüruni-vüsta [Orta əsrlər] yazıları halını almış."*

Əfəndim! Qafqaziyada şimdiyədək işlənilən xəttin nə üsulda yazıldığını bilsəniz, bu etirazınızı "Uşaq gözlüyü"nün yazı üsuluna deyil, bütün Azərbaycanda hələ yazılmaqda olan ümumi xəttə qarşı etməliydiniz. Əlavə, bu xəttin nəsi sizin zövqi-səlim və hissi-bədiinizi oxşayammadığını bir dürlü anlayammayıram.

Kəlmələrin cizgilər içində yazılmasına gəldikdə, hənuz sol, sağ, yuxarı, aşağı bil-məyən və əlləri yazarkən titrəyərək sadə "əlif" şəklini belə doğru müstəqim [düzgün] yazmağa qadir olmayan kiçik çocuqlarımız "Uşaq gözlüyü"ndə olduğu kimi cizgili dəftərlərdə qolaylıqla yaza bilmələri sənələrdən bəri hasil etdiyim təcrübəmin nəticəsidir. "Uşaq gözlüyü" ilə tədris edən müəllim əfəndilərin bir çoxu bunu təsdiq edə bilər. Qolaylıqla əldə edilə bilən bir istək ruslara, fransızlara təqlidən olsa belə, sizcə qəbahətmi sayılır? Zatən tərəqqinin hər addımı birər təqliddən ibarət deyil mi?

Bir də sait hərflərin üzərindəki işarətlərə etiraz edərək yazırsınız:

*"Sonra üsuli-sövtiyyə [fonetika, fonetik üsul] xətaları: "Ə" səsi يئر ilə, بش [beş] بئيش şəklində yazılır. و ا [ev] ئه و yaxud يو ا surətində. Bu müəllim, gözəl türkcənin layətəğəyyər [dəyişməz] bir qaydasını bilməli idi: Heç bir müstəsnası olmadan, türkcədə kəlmənin ibtidasında [əvvəlində] saitlə yazılmamış bir qeyri-sait hərf məftuh oxunur: بش [beş], سس [səs], يمك [yemək], كلمك [gəlmək] ilax. kimi."*

Məncə bu iddianızda yanılırsınız. Zira ki, bu qayda ümumi olammaz: bir, biz, siz, bülbül, sünbül və bunlar kimi bir çox kəlmə saitsiz yazıldıqları halda məftuh oxunmayır. Zənn edərsəm siz bu qaydanı demək istəyirsiniz: Kəlmənin başındakı saitin hərəkəsi (ە) olarsa, bu (ە) əksəriyyən yazılmaz: گیم [gəmi], سس [səs], گلمك [gəlmək], د ر ه [dərə], كميل [kəmal], زبين [zəban] və ilax. kimi.

İmlamızın çətinliyi inkar olunammaz bir həqiqətdir. "Vav" [و] hərfi يوز [yüz], سوز [söz], قوش [quş], قوچ [qoç] kəlmələrində dörd sədaya işarət olduğu kimi, "ya" [ي] hərfi də ير [yer], ديش [diş], قيش [qış], كيچي [keçi] kəlmələrində dörd sədanı yazır.

İnsaf edəlim, elmsiz bir ailədə böyümüş, zehin və dimağı çalışmamış kiçik məktəblilərimizin zehnini qarışdırmadan bu səkkiz hərfi iki hərflə nasıl öyrədə bilərsiniz? Pedaqoji nöqteyi-nəzərindən bu doğrumu? İlk dəfədə bu hərfləri yek-digərindən [bir-birindən] ayırmaq və qolaylıqla çocuqlara öyrətmək üçün hər birinin üzərində ayrı-ayrı işarətlər qoyulmasının nəsinə etiraz edirsiniz?

Əfəndim! Bu hal lisan və ədəbiyyatımıza cahil olduğumuzdan deyil, ehtiyac və zərurətin şiddətindən doğur. Bəndəniz son sadə Osmanlı türkcəsinin Azərbaycanımızda qəbulu tərəfdarlarındanam. Bir zaman Maarif Nəzarəti tərəfindən üzərimizə mühəvvəl olunan [tapşırılan] Kitab Komissiyasında çalışarkən qiraət kitablarımız həp Osmanlı sadə türkcəsi ilə yazılmasını, yalnız birinci ibtidai sinifin qiraət kitabları pedaqoji nöqteyi-nəzərindən Azərbaycan türkcəsində olmasını söyləmişdik. Zira ki, bir Azərbaycan çocuğu يو و ا l-ə [ev], بش ə-بيش [beş] deyəmmədiyi üçün biz də bu kəlmələri "Uşaq gözlüyü"ndə يو ا, بيش surətində yazmaq məcburiyyətindəyiz.

*Talıbzadə Abdulla Şaiq*

## MÜTƏƏLLİMLƏR QURULTAYI [TƏLƏBƏLƏR QURULTAYI]

*4 iyun, 4-cü iclas*

İclas İbrahimli Müqbil cənablarının sədarəti və Süleyman Məlikzadənin katibliyi ilə açılır.

Növbədəki məsələlər:

1) Qazax nümayəndəsinin gəlməsi;
2) Mərkəzi Komitənin izahatı (mabəd [ardı]);
3) Məktəb məsələsi;
4) Əhvali-hazirə;
5) Cari məsələlər.

Məsələlərə keçmədən, Qazax nümayəndəsinin mandatı təsdiq olunur. Mərkəzi Komitənin fəaliyyəti barəsində izahatı dinlədikdən sonra Qurultay Komitəyə təşəkkür edərək, əzasının [üzvlərinin] rəsmlərini yadigar olaraq gələcək Mərkəzi Komitədə saxlamağı qət edir. Məktəb məsələsi hazır olmadığından növbədən çıxarılır. Əhvali-hazirə bir çox mübahisələri səbəb olur. Gec vaxta çəkdiyindən qəti həlli yarınkı iclasa qalır. İclas saat 9 radələrində qapanır.

**Etiraz**

İkinci Qafqaz Müsəlman Mütəəllimlərinin 4 həziranda 1919 sənədə vüqu bulmuş iclası heyəti-rəyasətin Ararat Cümhuriyyətində yaşayan müsəlman əhalisi haqqında məruzəsin[i] nəzəri-etibara alaraq şöylə bir qərara gəlmişdir:

Müsəlman əhalisi məzkur [adı çəkilən] cümhuriyyətdə qayət fəna bir halda olaraq, burada yaşayan qeyri millətlər hüquqati-mülkiyyəyə [vətəndaşlıq hüquqlarına] malik olmayaraq və dəhşətli aclığa təhəmmül edərək [qatlaşaraq], gündə minlərcə tələf olmaqdadırlar. Fəzlə [əlavə] olaraq müsəlman əhalisi hər bir tərpənişində erməni əhalisi tərəfindən amansız təcavüzata, talana düçar olduğundan əlavə, hətta Ararat Cümhuriyyəti onların qətl olunmasına imkan verir.

İkinci qurultay böylə hadisəni Mavərayi-Qafqazda [Zaqafqaziyada] yaşayan millətlər arasında hikməti-məişət [birgəyaşayış qaydaları] üzrə olmamasını izhar edərək [bildirərək], fövqdə [yuxarıda] zikr olunmuş Ararat Cümhuriyyəti müsəlmanları haqqında icra olunan vəhşiliklər, ədalətsizliklər qarşısında və buna imkan verən, ikiüzlü siyasət aparan Müttəfiqlər əleyhinə bütün qəlbi ilə etiraz edir. Qurultay hər bir mürrəvici-əfkara [yayın orqanına] müraciət edərək, böylə icra olunan vəhşiliklər əleyhinə kəndi nifrətlərini bildirməyi rica edir.

## QARABAĞ

**Şuşa müsadiməsi [toqquşması]**

Son günlər Şuşa hadisatı barəsində min dürlü şayiələr çıxmaqdadır. Bu hadisənin təfsilatı hələ məlum deyilsə də, əlimizdə olan bir qədər məlumatı qarelərimizə [oxucularımıza] təqdim ediriz:

Hamı bilir ki, ermənilərin bəzi qismi Qarabağı Ermənistana mülhəq etmək [birləşdirmək] fikrində olub, bu vaxtadək hələ Azərbaycan Hökumətini qəbul etməyirdi. Hökumətimiz nə qədər çalışdısa da, erməniləri sülh təriqi [yolu] ilə tabe edəmmədi.

Bununla bərabər, Şuşada post və teleqraf, xəzinə, qışla [kazarma] və sairə kimi mühüm dövlət müəssisələri Ermənistanda [ermənilərdə] olduğundan, böyük əngəllər çıxırdı. Nəhayət neçə gün əvvəl post idarəsini Şuşanın müsəlman hissəsinə köçürmək istədikdə, müxalif ermənilərlə əsgərlərimiz arasında xırda bir müsadimə [toqquşma] vaqe olmuşdur. Müxtəsər bir atışmadan sonra ermənilər hökuməti qəbul, silahlarını təslim və sairə kimi tələblərimizi qəbul edərək sülh və asayiş bərpa edilmişdir. Hal-hazırda Şuşada nizam və müsalimət [asayiş] bərpadır.

Mütəəssifanə [təəssüf ki], müsadimədə təsadüfən bir neçə ingilis əsgəri qətl edilmişdir. *(Hadisatın təfsilatı sonra.)*

**Ermənilərin dəsisəsi [hiyləsi]**

Ermənilərin Qarabağ haqqındakı sui niyyətləri barəsində bir çox sənədlər kəşf edilmişdir. Bunları şimdi dərc ediriz. Gələcəkdə əlimizə düşdükcə, bittərcümə [tərcümə edərək] dərc edəcəyiz. Hələliyə ələ keçən sənədlər bunlardır:

*"4 aprel 1919, nömrə 1056.*

*Cənab polkovnik! Zaqafqaziyadakı ingilis qoşunları komandanı general Tomsonla olan və edilən danışığa görə Qarabağın erməni hissəsinin idarəsi üçün İngilis Komandanlığı nəzdində nümayəndəliyə təyin edilirsiniz.*

*Ermənistan Xariciyyə naziri*
*S[irakan] Tiqranyan.*
*Baş katib: A. Ter-Akopyan.*
*Cənab polkovnik Mixail*
*Arzumanyana."*

*"Ermənistan Cümhuriyyəti Daxiliyyə Nəzarəti, 4 aprel 1919.*
*Qarabağ Erməni Milli Şurasına.*

*Hökumətin vədəsinə görə Arzumanyan İngilis Komandanlığı cənbində [nəzdində] nümayəndəliyə təyin edilir. Hökumətin qərarına görə, orada idarə təşkil etmək üçün hər ayda 400 min rublə göndərilir. Sizin hesabınıza Zəngəzura milyon manat göndərilmişdir. Sizin danışığınıza görə Arzumanyan general Tomson hüzurunda təşəbbüsatda bulunur. Var qüvvənizlə çalışmalısınız ki, bizimlə və Zəngəzurla əlaqənizi möhkəmləşdirəsiniz.*

*Daxiliyyə naziri (imza)"*

*"Alicənab Ermənistan Rəisi-vükəlasına [Baş nazirinə], 4 may 1919.*

*Sizə məlum edirəm ki, general Şattlvort Bakıda mənə bəyan eylədi ki, Ermənistan Hökuməti Azərbaycana razılıq vermişdir ki, müvəqqətən Qarabağı və Zəngəzuru idarə eyləsin. Ona məktubi [yazılı] sənəd vermədi amma Qarabağ heyətinin rəisi mayor Mak-Mosen 1 mayda onunla bərabər Gorusda olarkən mənə dedi ki, Ermənistan Hökuməti ilə olan etilafa [razılığa] görə, Gorusdakı Erməni Milli Şurasını qəbul etməyiriz. Onun nümayəndəsi Şahmazyanı da Ermənistan Hökuməti qəbul etməyir. Təvəqqe edirəm, bu barədə mənə məlumat verəsiniz. Zira Qarabağ və Zəngəzur Azərbaycanı yaxınına buraxmağa ümid etmirəm ki, razı olsunlar. Göndərirəm sizə teleqram, çünki məsələ çox mühümdür. Binaənileyh [ona görə], Rubeni də göndərirəm ki, sizə müfəssəl məlumat versin. Qalan mətləbi Ruben şifahən sizə bəyan edər.*

*Arzumanov"*

*"Şişə erməni hökuməti nümayəndəsi Arzumanyana.*
*1919-cu ildə may ayının 9-da alınmışdır.*

*Ermənistan Hökuməti heç bir vaxt kimsəyə rizasını verməmişdir. Hökumət qalır, hökumət 1559 köçəriləri buraxmağa razıdır.*

*Generalnı katib [A.] Ter-Akopyan."*

*"İrəvan - Ermənistan Hökuməti sədrinə.*

*Təvəqqe edirəm [A.] Ter-Akopovun teleqramını təsdiq edəsiniz. 1559 sizin razılığınız barəsində İngiltərənin Baş komandanlığından rəsmən təsdiqnamə aldım. Daxiliyyə naziri [Ruben Ter]Minasyanın teleqramını aldım. Hərbi rəmzlə [şifrlə] "meo" ya "ome" rəmzi ilə teleqraf vurun.*

*[Mixail] Arzumanov.*
*Göndərilmişdir*
*10 mayda 1919-cu sənədə."*

## PROTESTO NÜMAYİŞLƏRİ

Denikinin Azərbaycan üzərinə vaqe olan qara təhdidi bütün camaat və əmələ müəssisatı [ictimai müəssisələri və işçi müəssisələrini] ciddi surətdə əlaqədar edir. Bu məqsədlə konfrans tərəfindən bu gün, cümə günü ayın 13-ü bütün əmələ rayonlarında mitinqlər tərtib edilir. Bu mitinqlərdə əhvali-hazirə haqqında məlumat verilir. Hökumətdən ciddiyyətlə səbat göstərməsi tələb [edilir] və əmələlər tərəfindən mübariz hökumət tərəfində olub ona yardımçı olacaqları üçün beyət olunacaqdır [tabe olunacaq, itaət ediləcəkdir].

Bu mitinqlərə müsəlman əmələlərinin də külliyyətlə gəlmələri, müsəlman firqələri və əzcümlə [o cümlədən] "Müsavat" firqəsi tərəfindən tövsiyə olunur.

* * *

Düşənbə [bazar ertəsi] günü ayın 9-da ümumi protesto tətili elan olunub, əmələlər ümumi rayonlardan bayraqları ilə şəhərə, Hürriyyət meydanına gələcək, orada yığışdıqdan sonra bərabərlikdə mənsub olduqları firqələrin bayraqları və istiqlal və hürriyyət müdafiəsinə yazılı lövhələrlə hökumət qarşısına (Mirbabayevin evi, dəniz kənarı), oradan ingilis komandanlığına (Sadovaya), sonra Parlaman qarşısına gəlib oradan hər kəs öz rayonuna gedəcəkdir.

* * *

Ayın 9-da elan olunacaq tətil səhər saat 8-dən başlanacaq. Hürriyyət meydanındakı ictima [yığıncaq] 12-nin yarısında olacaq. Bu gün vaqonlar fəhlələr üçün pulsuz olacaqdır. Tətil gününün pulu veriləcəkdir. Nümayiş proqramı və yürüşü aşağıdakı tərtib üzrə olacaq.

Balaxanı və Suraxanı:

Balaxanı-Suraxanı əmələləri səhər saat 11-in yarısında şəhərə gəlirlər. Vağzal meydançasında və Mixaylov məktəbi qabağından keçərək, Telefonnı və Budaqovski küçələrlə Balaxanski küçədən keçib saat 12-nin yarısında Hürriyyət meydançasında hazır olurlar.

Belı-qorod, Çornı-qorod əmələləri saat 10-da Sovet Syezd xəstəxanası qarşısında olan meydanda yığılıb, oradan saat 11-də Telefonnı, Milyonnı, Malakanski, Budaqovski və Birjevoy küçədən keçib, saat 12-nin yarısında Hürriyyət meydanında hazır olurlar.

Həmkarlar İttifaqları və siyasi firqələr səhər saat 10-da parapetə cəm olub Kolyubakinski, Mariinski, Tarqovı və Morskoy küçələrdən keçib saat 12-nin yarısında Hürriyyət meydanında hazır olurlar.

Bibiheybət və Bayılov Elektrik Qüvvəsi meydanına cəm olub oradan bulvara, nəqliyyat işləri işçilərinə qoşulub Olqinski, Baryatinski, Mariinski və Birjevoy küçələrdən keçib saat 12-nin yarısında Hürriyyət meydanında hazır olurlar.

Morskoy rayon saat 10-da bulvara "Fenomen" teatrosu qarşısına cəm olub, Bibiheybətdən gələnləri gözləyib, onlarla bərabər Hürriyyət meydanına gəlirlər.

Dəmiryol işçiləri saat 10-da Vağzal meydanına cəm olub oradan Telefonnı, Budaqovski küçələrlə Hürriyyət meydanına gəlirlər.

Biləcəri işçiləri saat 10-da Hürriyyət meydanına cəm olub, oradan Biləcəri mövqifi [stansiyası] bağına gedərək burada isə mitinqlər tərtib edirlər.

## BAKI XƏBƏRLƏRİ

**Ali hökumət heyəti**

Məclisi-Məbusan tərəfindən qəbul edilmiş olan qətnaməyə görə, hökumət içərisindən üç nəfərdən ibarət bir Ali hökumət heyəti təşkil edilmişdir.

**Azərbaycan-Gürcüstan ittifaqı**

Rəsmi dairələrdən alınan məlumata görə, Azərbaycan ilə Gürcüstan cümhuriyyətləri arasında hərbi ittifaq əqd edilmişdir [imzalanmışdır].

**Nazirlərin Tiflisə əziməti**

Hərbiyyə naziri general Səməd bəy Mehmandarov qulluq işlərindən ötrü Tiflisə hərəkət və əzimət etmişdir [yola düşmüşdür]. Rəisi-vükəla [Baş nazir], Daxiliyyə və Ədliyyə nazirləri Nəsib bəy Yusifbəyli, [Aslan bəy] Səfikürdski dəxi bir neçə günlüyə Tiflisə getmişlərdir.

**İngilislərin getməsinə dair**

Mövsuq [etibarlı] mənbələrdən bizə xəbər verirlər ki, Bakıdakı İngiltərə qoşunları əvvəlcə verilən əmrə görə Bakıdan gedəcək və onların əvəzinə başqa dövlətin qoşunları gələcəkdir.

**İtalyanların gəlməsi ətrafında**

Bu günlərdə Tiflisdən Bakıya gəlmiş olan ofiserlərin dediyinə görə, orada İtaliya qoşunları cəm olmaqdadırlar. Varid olmuş [gəlmiş] İtaliya qoşunlarının miqdarı cüzi isə də, lakin hər bir qoşun hissəsindən bir qədər vardır.

**Müsəlman Müəllimləri İttifaqında**

- Müsəlman Müəllimləri İttifaqı bütün məhəllərə [yerlərə] elam etmişdir [bildirmişdir] ki, tədrisat sənəsi 10 sentyabrda başlanmasını nəzəri-etibara alaraq həman vəqti-mövudda [müəyyən edilmiş vaxtda] məhəllərdə bulunsunlar və dərslərə şüru etsinlər [başlasınlar].

- Yenə həman İttifaq bütün Azərbaycandakı məktəb olan şəhər və qəsəbələrə birər kağız göndərərək rica etmişdir ki, məhəlli ittifaq təşkil edərək Bakıda mərkəzi təşkilat ilə İttifaqa mülhəq olsunlar [qoşulsunlar]. Böyləliklə, təşkil edilmiş ittifaqlarla mərkəzi təşkilat miyanında [arasında] daimi bir əlaqə olacaqdır.

- İttifaq bütün məkatib [məktəblər] müdiriyyətlərinə məlum etmişdir ki, gələcək dərs sənəsi üçün lazım ola biləcək hər növ ləvazimatı yazıb Maarif Nəzarətindən istəsinlər. Zira İttifaqın təşəbbüsatı sayəsində Nəzarət ləvazimat verməyi dəröhdə etmişdir [öhdəsinə götürmüşdür].

- Hal-hazırda İttifaqın idarəsi tərəfindən görülmüş tədabir [tədbirlər] sayəsində bütün ibtidai məkatib üçün proqram hazırlanmaqdadır. Bundan ötrü də Bakıdakı ən təcrübəli müəllimlərdən Mahmud bəy Mahmudbəyzadə, Rəsul bəy Tahirzadə, Ağa bəy İsrafilbəyzadə, Əbdüləli bəy Vəlibəyzadə, Mirzə Hüseyn Axundzadə, Mirzə Ələkbər Axundzadə cənabları cəlb edilmişlərdir. Proqram hazırlandıqdan sonra təb [çap] edilərək məhəllərə göndəriləcəkdir.

**Əmələlərin protestosu**

"Müsavat" və "Hümmət" firqələrinin Məclisi-Məbusan fraksiyalarına əmələlərin protestosu gəlməkdədir. Protestoda göstərilir ki, Könüllü orduya həman əvvəlki qərar üzrə əsliha [silah] və külli miqdarda hərbi ləvazimat göndərilməkdədir. Əmələlər böylə hərəkatın önü alınmasını ciddi surətdə tələb edirlər.

* Neçə vaxt əvvəl Ərzaq Nəzarəti dəxildarını [kassirini] soymaqda müttəhim edilmiş olan Məhəmməd ağa Həsənov üç ay həbsə məhkum edilmişdir.

**Əsgərlikdən qaçmaq cəzası**

Bakı qalabəyisinin [komendantının] bi-nagüzarlığına [sərəncamına] görə, 3-cü uçastokda sükunət edən [yaşayan] Bakı əhlləri Hacı Əbdülbaqi Abdulla oğlu, Balahacı Hüseynov, Hacıpaşa Ağababa oğlu, Ələkbər Məşhədi Nəcəf oğlu, Məhəmmədkərim İsrafilov, Sadıq Hacı Qafar oğlu və Əliabbas Nəsrulla oğlu öz oğlanlarını və qardaşlarını əsgərlikdən qaçırmaqdan ötrü gizlətməkdə müttəhim edildiklərindən, əsgərlər gəlincəyə qədər Mərkəzi Həbsxanada məhbus edilmişlərdir.

**İtibdir**

İyunun 3-də Əmirhacıyan (Xilə) kəndi əhlindən 14 yaşında Əhməd Hacı Adil oğlu şəhərə gəlib, o vaxtdan ondan bir xəbər yoxdur. Onun yerini bilənlərdən xahiş olunur ki, Xilə kədində Hacı Adilə xəbər versinlər.

**Könüllü ehtiyat alayı**

Srağagün, cümə günü könüllü "ehtiyat alayı"nın axırıncı bölüyü Təzəpirdən Salyan qışlasına [kazarmasına] getmiş və orada zabitlərdən məşq və təlim almışlardır. Salyan qışlasında məşq əsnasında şəhərdən Məclisi-Məbusan əzalarından [üzvlərindən] hərbi məmurlar, axundlar və firqə nümayəndələri hazır olmuşlardır. Könüllülərin istənilən dərəcədə təlim və məşqə həvəsli olduqları və az bir zamanda arzu olunan bir səyaqda hazırlanmaları hər kəsi sevindirmişdir. Məşqdən sonra könüllülər dəstələrlə nəğmə oxuduqları halda Şamaxı küçəsi, Bazar və Aziatski küçələrlə Təzəpir həyətinə toplaşıb orada dua oxuduqdan sonra evlərinə getmişlərdir. Könüllülər keçdikləri küçələrdə külli miqdarda camaat onların tamaşasına çıxıb şiddətli surətdə alqışlayaraq "Yaşasın könüllülərimiz" demişlərdir. Könüllülərin miqdarı hal-hazırda 1200 nəfərə qədərdir. Yenidən yazılanların miqdarı isə gün-gündən artmaqdadır. Komissiyanın idarəsi Serkovnı küçədə "Fani" kontorunda hər gün səhər saat 9-dan 2-yə, axşam saat 5-dən 7-yə qədər açıqdır. Yazılmaq istəyənlər oraya müraciət etməlidirlər.

## ZİYALILAR İTTİFAQINDA

*Mayıs 26 iclası*

İclas açıldıqda 19 mayıs iclasının bəratülqövlü [protokolu] oxunaraq və imza edildi. Əxzi-əsgər [hərbi çağırış] idarəsinə dair maddə oxunduqda vali ilə görüşməyə intixab olunmuş [seçilmiş] Ağalar bəy ərz etdi ki, vali ilə görüşüb Əxzi-əsgər idarəsi bizim nümayəndələri qəbul etmədiyi xüsusunda danışmışdır. Vali bu idarədən bir məşruhə [izahat] yazılmasını xahiş edir. İdarə qərar qoydu ki, Əxzi-əsgər idarəsi bizim nümayəndələri valinin əmrinə rəğmən qəbul etmədiyi xüsusda valiyə yazılsın. Sonra günlük məramnaməyə keçildi.

Müzakirəyə qoyulacaq məsələlər:

1) İclasın nəfinə [xeyrinə] qoyulacaq tamaşa xüsusunda;
2) Ümumi iclas dəvəti;
3) İş evləri açmaq;
4) Məhsulat toplamaq;
5) Gömrük haqqında;
6) Hali-hazır;
7) Türkiyədə həbsə alınmış [Əhməd bəy] Ağayev haqqında;
8) İclasa gəlməyən üzvlər haqqında.

Əvvəlinci məsələ müzakirəyə qoyulduqda, Ağa əfəndi [Axundov] söylədi ki, Hökumət Teatrosunu həmin mayıs ayının 27-nə tutmuşdur və Hacıbəyov Qardaşlarının müdiriyyəti ilə görüşmüşdür. Həman gün "Arşın mal alan" operettasının mövqeyi-tamaşaya qoyulmasını müdiriyyət vəd etmişdir. İdarə qərar qoydu ki, tamaşa günü Ağa əfəndi, Camo bəy, Cəmil bəy [Vəzirov], Teymur bəy [Bayraməlibəyov], Abdulla bəy [Abaşidze], Əli-məhəmməd, Xudaverdi, Baba bəy və Sadıq əfəndi teatroda hazır olub işlərin nizamla getməsinə diqqət etsinlər.

İkinci məsələ müzakirəyə qoyulduqda heyəti-rəyasət xəbər verdi ki, heyətlərdən bu zamana kimi layihələr idarəyə daxil olmamışdır. Tək bir maarif heyəti tərəfindən layihə gəlmişdir. Bu səbəbə ümumi iclasa təqdim etməyə bir şey yoxdur. Lazımdır ki, heyətlər öz layihələrini idarəyə versin və idarə ümumi iclasa təqdim etmək üçün bir şey hazırlasın. İdarə qərar qoydu ki, heyətlər həpsi həziranın 2-nə təyin olunmuş iclasa layihələrini hazır etsinlər, ta ki ümumi iclasa təqdim etməyə bir iş olsun. Hazırda olan heyətlər sədrləri vəd etdilər ki, həmin iclasa layihələrini təqdim edəcəklər.

Üçüncü məsələyə keçdikdə, Ağalar bəy və Sadıq əfəndi [Hüseynzadə] kəndilərinə mühəvvəl olunmuş [tapşırılmış] iş evləri smetalarını oxudular. İdarə əsasən smetanı qəbul etdi, fəqət tapşırdı ki, daimi məxaricləri müvəqqəti məxariclərdən ayrı göstərib smetanı kəndiləri Ümuri-Xeyriyyə [Sosial Təminat] nazirinə təqdim etsinlər.

Dördüncü məsələyə keçdikdə, Rəhim əfəndi söylədi ki, ot və taxıl məhsulu bu il boldur. Fəqat bunları toplamaq əhali üçün müşkül olacaqdır. Səbəb odur ki, keçmiş ilin hadisəsindən sonra əhali həm can, həm mal, ziraət alatı [kənd təsərrüfatı alətləri] tələfatı vermişdir. Lazımdır ki, əhaliyə yardım edilsin. İdarə qərar qoydu ki, Rəhim əfəndi və Abdulla bəy [Abaşidze] İttifaq tərəfindən Ziraət nazirinin hüzuruna gedib bu xüsusda danışsınlar və nazirdən aldıqları cavabı idarəyə məlum etsinlər.

Beşinci məsələyə keçdikdə, Ağalar bəy bəyan edir ki, Bakıdakı Gömrük İdarəsi üçün bir mühafizə bölüyü təşkil edilir. Bu, ziyadə lazımlı bir bölük isə də, fəqat buraya toplanan nəfərlər mötəbər şəxslərdən deyil. Olar ki, bölük qeyri-mötəbər fərdlərdən toplansın və bunlar gömrük idarəsində olan hökumət sərvətinə yaxşı can yandırmasınlar. İdarə qərar qoydu ki, bu xüsusda Daxiliyyə nazirinə bir məktub yazılsın.

Altıncı: Denikin ordusu Dağıstan hökumətini məhv edib Azərbaycan sərhədinə gəlməkdədir. Ehtimal var ki, bizim də istiqlaliyyətimizə təcavüz etsin. Üzvlər tərəfindən irad olunan [söylənən] atəşin nitqlərdən sonra idarə qərar qoydu ki, bu xüsusda hökumətə var qüvvəsi ilə kömək etsin.

Yeddinci: [Heydər bəy] Şahtaxtlı ərz etdi ki, illərlə zəhmət və məşəqqətlərə uğrayaraq vətənimiz üçün çalışan və vətənin tərəqqisinə səy edən Əhməd bəy Ağayev Türkiyədə siyasi bir səbəbə görə həbsə alınmışdır və bu zamana kimi onun həbsdən azad olması üçün heç bir kəs çalışmayır. Halbuki bu şəxsin böylə bir zamanda vətənimizdə olması ziyadə faydalı olardı. Bundan masiva [bundan başqa], Əhməd bəyin sənələrlə işlədiyini hər kəs bilir. Ziyalılar İttifaqının bu yolda çalışması əhəmiyyətdən xali [əhəmiyyətsiz] olmaz idi, söylədi. İdarə qərar qoydu ki, İttifaq tərəfindən Osmanlı hökumətinə böylə bir istida [ərizə] yazılsın:

*"Müstəbid çar hökumətinin ən müdhiş və hökmran zamanlarında Qafqaziya müsəlmanlarının tərəqqi və təalisinə [yüksəlməsinə] böyük xidəmatda [xidmətlərdə] bulunmuş və bu uğurda nəhayət, əziz vətənindən uzaqlaşmağa məcbur olan Əhməd bəy Ağayev cənablarının Dövləti-Aliyyə tərəfindən həbsə alınması qafqaziyalıları dərin bir yas və kədər içində buraxmışdır. Bütün müsəlmanlığın və türk dilinin ikinci Kəbəsi olan İstanbulda, o paytaxti-xilafətdə, islam və türk xadimlərinin mücazata [cəzaya] uğraması İstanbula qarşı böyük bir hörmət və məhəbbət bəsləyən gənc ziyalılarımızda pak fəna təsir buraxır. Çar istibdadı zəncirləri altında inləməyə məhkum olduğumuz və son vaxtlarda "bolşevik maskası" altında kəndi şəxsi qərəz və siyasətlərini yürütmək məqsədilə əziz yurdumuzu və sevgili millətimizi yıxıb-yaxaraq, irz və namusumuza toxunaraq, çocuqlarımıza, qadınlarımıza belə rəhm etməyən erməni vəhşətinin öldürücü, yaxıcı, yıxıcı siyasətinə qurban olduğumuz və bütün-bütünə məhv və inqiraza [çöküşə] üz tutduğumuz bir zamanda qəhrəman Türk Ordusunun imdadı ilə o müdhiş fəlakətdən qurtulduq. Qurtulduq da, kiçik bir türk hökuməti təşkilinə də müvəffəq olduq. İştə, bu gün Qafqaziyanın yaşıl dağlarında dalğalanan aylı-ulduzlu bayrağımız o qocaman türklüyün doğurduğu yeni hilaldır. Gənc hilalımız o şan və zəfər görmüş hilalınızın yavrusu olduğu kimi, bizlər də o qocaman, qəhrəman türk milliyyətinin bir çox siyasi və tarixi səbəbdən dolayı uzaq düşmüş yavruları deyilmiyiz? Bir övladın babasına müraciəti kimi, biz Qafqaziya Ziyalılar İttifaqı böyük babamız Dövləti-Aliyyəyə rücu [müraciət] edib, vətənimizin çalışqan adamlara çox ehtiyacı olduğu səbəbilə böylə bir zamanda Əhməd bəy Ağayev cənablarının həbsdən azad və Qafqaziyaya göndərilməsini acizanə istirham [xahiş] edir."*

Səkkizinci məsələyə keçildikdə, üzvlərdən Mehdi bəy Hacıbababəyli idarənin beş iclasına gəlmədiyi və bu xüsusda məlumat vermədiyi səbəbiylə nizamnaməyə görə üzvlükdən xaric edildi və əvəzinə Zivər bəy seçildi.

**Elan**

Bununla ümuma elan edirəm ki, Haşım Qafar oğlu mənə olan qərzi [borcu] verməmişdən, özünün Nikolayevski küçə, 6-cı tupikdə [dalanda] olan 3 nömrəli evini satmağa ixtiyarı yoxdur.

*Mirəlinağı Rzayev*
*10222*

**İtibdir**

Bir qız uşağı, üç yaşında, adı Reyhan İslam qızı bu gün üç gündür ki, itibdir. Xəbəri olanlardan acizanə xahiş olunur 4-cü polis idarəsinə xəbər versinlər.

*10223*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan
Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov
Əmrazı-əsabiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld
Cərrahiyyə 9-11 Sander
Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron
Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]
Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik
Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan
Qulaq və boğaz ağrısı 12-2 B. K. Fin-kelşteyn;
Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin
Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

Doktor **M.M.Kərimov** göz naxoşlarını və diş həkimi **A.Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Bakı, Türkan, Zirəyə və geri**

İyun ayının 8-dən etibarən paroxod "Zaburunye" işləməyə başlayacaqdır. Hər gün saat 9-da "Qafqaz-Merkuri və Vastoçni" cəmiyyətinin paraxodu 17-ci körpüdən (Qorçakovski küçə ilə qarşı) gedəcəkdir. Bakıya isə axşam saat 6 radələrində gələcəkdir.

*10219*

Xarici məmləkətlərə yun yollamağı və komisyon təriqi ilə xarici məmləkətlərdə satmağı **İ.V.Denisovun** bankir kantorası qəbul edir (Olqinski, Nikolayevskinin küncündə, telefon nömrə 37-75). Sifarişlər saat 5-dən 7-yə dək qəbul olunur.

*10220*

**Zəhmət (məsai) bürosu**

Bakı Şəfqət Bacıları İttifaqı şəfqət bacılarını gecə işlərinə, iynə vurmağa, masaj etməyə müərriflik edir [tövsiyə edir, zəmanət verir]. İttifaq öz işçilərinin işlərinə cavabdehdir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski və Malakanski küçələrin küncündə, nömrə 16/22, mənzil 6. Konkanın mənzili. Telefon nömrə 14-08. Büro bütün gün açıqdır.

*8755*

**İstanbuldan, İngiltərədən**
**və Fransadan mallar**

İ. V. Denisovun bankir kantorası İstanbula, Marselə (Fransa) və Liverpula (İngiltərə) mal alıb gətirmək üçün nümayəndə göndərir. Sifarişlər İ. V. Denisovun bankir kantorasında qəbul olunur (Nikolayevski və Olqinski küçələrin küncündə) hər gün axşam saat 5-dən 7-dək.

*10210*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Dəvətnamə***

"Sovet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayı Şurası. Bakı Neft Sənayeçiləri Qurultayının rəhbər orqanı.

***Ümidimiz bərkəmaldır***

"Əhalimiz hər xüsusa hazırlanır və hazırdır": qəzetdə "xüsusa" yerinə "xüsusu" getmişdir.

Bu cümlə anlaşılmamışdır.

"Ölməkdən qorxan bir millət daima öl-məyə məhkum və ölüdür": qəzetdə "ölmək-dən qorxan" yerinə "ölməkdən qorxmayan" getmişdir.

***El ordusu***

"Nə zaman kişnəsəydi...": misralar Hüseyn Cavidin "Hərb və fəlakət" adlı şeirindəndir.

"daxili və xarici düşmənlərdən müdafiə edən": qəzetdə "müdafiə edən" yerinə "müdafiədən" getmişdir.

***Sülh ətrafında***

"Dördlər Şurası" (yaxud Böyük Dördlük): Paris Sülh Konfransının gedişində dörd böyük dövlətin liderlərindən əmələ gələn şura ("Böyük Dördlük" yaxud "Dördlər Şurası"); bura ABŞ prezidenti Vudro Vilson, Britaniya, İtaliya və Fransa Baş nazirləri Lloyd Corc, Vittorio Orlando və Jorj Klemanso daxil idi.

"Reyxstaq" [Reichstag]: Kayzer Almani-yası (1871-1918) və Veymar Respublikası (1918-1945) dövründə Almaniyanın parlamenti.

***Qəzetələrdən***

"Avamlar Kamerası": ikipalatalı Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası.

"Sülh Konfransında məsələlər həll edilənədək": qəzetdə "edilənədək" yerinə "edilərək" getmişdir.

***Türkiyədə***

"Darülfünun" (yaxud Darülfünuni-Osmani): Türkiyədə ali təhsil müəs-sisəsi; indiki İstanbul Universiteti.

"İngilis Mühibbi Cəmiyyəti" (İngilis Dost-ları Cəmiyyəti): 1919-cu ilin ortalarında Türkiyədə qurulan və Türkiyənin İngiltərənin himayəsinə gir-məsi fikrini müdafiə edən cəmiyyət.

"Birinci fəriq": Osmanlı ordusunda hərbi rütbə, müasir dövrdə "ordu generalı" rüt-bəsinə uyğundur.

"A. P." qəzetəsi: "Assoşieyted press" qəzeti nəzərdə tutulur.

***Millləşdirmək məsələsinə aid***

"məftuh": ərəb qrafikasında, hərfin üstündə qısa "ə" səsini ifadə etmək üçün qoyulmuş fəthə işarəsi daşıyan; "məftuh hərf": özündən sonra "ə" saiti gələn samit.

***Qarabağ***

"Ermənistan Xariciyyə naziri S[irakan] Tiqranyan": qəzetdə səhvən belə getmişdir: "Ermənistan Xariciyyə naziri Ter-Akopyan".

"Baş katib: A. Ter-Akopyan": qəzetdə bu sətir buraxılmışdır.

"Minasyan": qəzetdə səhvən "Mamasyan" getmişdir.

***Bakı xəbərləri***

"üç nəfərdən ibarət bir Ali hökumət heyəti": qəzetdə "ibarət" yerinə "ibarətdir" getmişdir.

***Ziyalılar İttifaqında***

"İclasın nəfinə qoyulacaq tamaşa xüsusunda": güman ki, "İttifaqın nəfinə…" olmalıdır.

"Beşinci məsələyə keçdikdə": qəzetdə "keçdikdə" yerinə "getdikdə" yazıl-mışdır.

"Dövləti-Aliyyə": Osmanlı döv-ləti nəzərdə tutulur.